# Musa Yaqub şeirində Ölüm anlayışı

**Məni belə bir fikir düşündürmüşdü uzun illərdi: İnsan ölümü niyə bu qədər ağırdır, kədərlidir və emosiyalardan daha çox İdraka təsir göstərir? Ona görəmi Allahın möcüzəsindən yaranan İnsan əbədiyyətə köç edir, sevdiyi və gördüyü insanlardan ayrılır! Özünə bir təsəllimi, həqiqətmi Axirət dünyasını seçir. Belə məqamlarda İnsan varlığından yaşadığı illərin yaxşılıq və pislik müstəvisində olanları bir daha İdrak süzgəcindən keçirir. Təbii haldır: idraki həqiqətlər, həyati fəlsəfi meyarı ilə eyniləşən mənəvi saflıq və əxlaqi təmizlik sistemi o şəxsin davranışı üçün sinkretik səciyyə kimi özünü büruzə verir. Əlbəttə, bu paralellikdə yaşam və son arasında qeyri-ahəng də yarana bilər. Lakin duyğuları ehtizasa gətirən (oyadan) və bunun üçün əsas məqam, səbəb bu dəyişiklikdə emosiyaları tarıma çəkən Ölüm həqiqəti itirilmiş doğmaların acısını sözlə ifadə edir, şeirin qeyri-səlis çalarları şairi həyəcanlandırır.**

Mən görkəmli şair Musa Yaquba bu mövzuda müraciət etməyimdə onu düşünməyə ehtiyacım yoxdur ki, öz ata və anasını digər şairlərdən daha çox istəyir - belə qənaət mənim tərəfimdən ədalətsizlik olardı. Klassiklərimizdən üzü bizə sarı itirilmiş valideynlərin əziz xatirəsinə neçə-neçə şeirlər yazılmışdır və hər bir şeirin məxsusi ovqatı olmuşdur. Mən Musa Yaqubun bir tədqiqatçısı kimi, onu çoxçalarlı poeziyasına müxtəlif rakurslardan yanaşmışam, gerçəklikdə ən incə, gözəgörünməz nəsnənin poetik ifadəsini duymuşam ki, bu - poeziyadır! Müşahidə, təxəyyül və İlham "üçlüyü" iştirakçıdır. Və ümumiyyətlə, qənaətim olmuşdur ki, şeir yazmaq öyrəniləsi iş deyil, ona görə də şairin heç vaxt "ilk şeiri" olmur. Musa Yaqub mexaniki eksperimentlərdən yaradıcılığı boyu qaçmışdır - yaxına buraxmamışdır. Şair psixoloji məişət hadisələrindən yazanda da mövzunu bəşəriləşdirir; necə ki, mən Musa Yaqubun Ölüm məfhumuna, daha doğrusu, ata itkisinə aid şeirlərinə toxunmağı qərarlaşdırdım. Axı, Ölüm - itki poeziya əxlaqının lakmusudur, ithafdır, ata (eləcə də ana) ruhuna işıq salır. Şair üçün bu itki "zarafat" görünmür, real Dünyadan Axirət dünyasına ən doğma insan köçür!

Musa Yaqub atasına üç şeir həsr etmişdir və bu poetik nümunələr assosiativ motivlərlə bir-birilə bağlıdır. "Atam... atam..." şeiri epik təsiri bağışlayır və xatirələr fon yaradır oğul məhəbbətinin təsviri üçün. Hansı ki yatağa qəfil düşmüş cavan ata çox sonralar şair oğlunun yaddaşında dərin şırım açacaqmış. Şeirin fabulası:

**Bir payız gününün batabatıydı,**
**Atam birdən-birə düşdü yorğan-döşəyə,**
**Bəlkə də ölümün zarafatıydı,**
**Gördü ki, fürsətdi saldı gerçəyə.**
**Yerin qarğışıydı, göyün qarğışı -**
**Tərs kimi tökürdü payız yağışı.**
**Tərs kimi kolxozun Ağyal atını**
**Sədrdən izn alıb gec tapa bildim...**

Bu əhvalat uşaq hafizəsində ata ölümündə bir vasitə kimi qalır; təkcə bumu? Yeniyetmə oğul yaşından ağmı başqa nəsnələrə də əl atır: Feldşer Soltan Əlinin dalısınca qaçır - ümid onun verəcəyi "kinə"yə qalacaqdı. O isə başqa bir kənddə imiş tərs kimi:

**Feldşer Soltan Əli yox idi evdə.**
**Tərs kimi baş kənddən gəldi sorağı.**
**Bu tərslik könlümə elə dəydi ki,**
**Bütün varlığımı yandırdı bənd-bənd.**
**Feldşer Soltan Əli neyləyərdi ki,**
**Onun kinəsinə baxırdı beş kənd.**

Bu misraları oxuyanda mən də o illərə qayıtdım: Ağakərim adında feldşer vardı, dəmiryolçulara xidmət edirdi, hər dəfə yaşadığımız stansiyaya düşəndə hər adambaşına "kinə" paylayırdı, sarı-qonur rəngliydi... Zaman və Məkan fərqi o idi, Feldşer Ağakərim dəmiryolu nəqliyyatı ilə gəlib tibbi xidmət göstərirdi. Feldşer Soltan Əli isə piyada idi. Deməк, onu mütləq tapıb xəstə ata üstünə gətirmək lazımdır. Oğul nə etməlidir:

Ağyala bir çubuq çalıb, gedəydik,
Məni də tərkinə alıb gedəydik.
Dedilər Feldşer də qalıb o tayda,
Tərs kimi Göyçay da coşmuşdu yaman.
Tərs kimi Ağyal da büdrədi çayda.

Əcəl yetişəndə hər şey "tərs kimi" gəlir, vaxt keçir, gün tamam olur, hər şey gecikir, ümid əcəlin girovuna çevrilir. Ömrün payızı beləcə özünü çatdırır: nə Feldşer Soltan Əlinin kinəsini nəzərə alır, nə də müəllim Alının məsləhətini. Yeniyetmə qəlbində ata məhəbbətinə bax ki, sağalacaq ümidini itirmək istəməmişdir: "Sən demə, Bakı var, Moskva varmış. Sən demə, dünyada ölü dirildən min bir dərd yanında min dava varmış." Ata ölümü ilə qarşılaşan oğul "günahı" qəzavi - qədərdə görür: həmin maneələr olmasaydı ölüm qalib gələ bilməzdi - bu, təsəlliydimi?!

**Ümid gecikdisə, əcəl tələsdi,**
**Tərs kimi o payız yelləri əsdi.**
**Tərs kimi qəfləti, lap birdən-birə...**
**... Bəxtimiz şaxtaya, ayaza düşdü,**
**Tərs kimi bu ölüm payıza düşdü.**

Ata ölümünü müxtəlif səbəblərə yozan şair nə biləydi bu, fələyin işidir, onun günahıdır. Fələklə mübarizə aparmaqda İnsanda güclü iradə olmalıdır, bu halı - mübarizəni şairlə şərin "müharibəsi"adlandırmaq da mümkün inamdır.

Belə bir beyt də vaxtilə deyilmişdir:

**"Fələk, oğlun oynatmasın dünyanı,**
**Dünya sənin uşağınçün top deyil."**

Bəli, söylənilən səbəblər yeniyetmənin fələyə göndərdiyi notaya bənzəmirmi? Tanrı insana başqa canlılar üzərində hökmranlıq gücü veribsə, yalnız əzrayıla təslimdir. Fələk Ruhdur zənnimcə, məgər can (bədən) ruhda deyilmi? Ruh yoxsa insan canı ölü bədəndir. Süleyman Peyğəmbərə məxsus fikirdir: "Şərin diqtəsi xəcalət və rüsvayçılıq gətirər, kamillik yolunda olanı salehlik qoruyar, günahkarı şər yıxar. Salehlərin işığı könül sevindirər, şərin çırağı sönər, təbəkkürdən münaqişə yaranar, yaxşı nəsihətə qulaq asanın hikməti var. Əmrə ehtiram edənlər əvəzini alar. Hikmətli adamın təlimi həyat qaynağı olar və dərin ağlı lütf qazanar."

Ata hikmətini o yaşda lazımınca başa düşməyən yeniyetmənin ürəyindən nə keçməlidir:

**Hər şeyin günahı o yağışdaydı,**
**Ya da ki, Ağyalı gec tapmağımda.**
**Yox, günah Göyçayın daşmasındaydı.**
**Havanın yas tutub gülməməyində,**
**Alı müəllimin İbn Sinadan**
**Bir kəlmə də olsun bilməməyində,**
**Feldşerin vaxtında gəlməməyində -**
**Günah o yağışda, yağışdaydı ki...**

Sonralar Musa Yaqub 36 yaşlarında atasına iki şeir həsr etdi, daha doğrusu, iki şeir ruhuna bağışladı. "Ruh" sözünü bu yerdə də təsadüfi işlətmirəm, görünür, ata ruhu onun yaddaşında parıldamışdır, amma ata-oğul arasında söhbət yaratmamışdır. Çünki, ruh cisimsiz, ölümsüz, maddi olmayan enerjidir - qüvvədir. Axirət dünyasında bədəndən (candan) ayrılmış halda müstəqil mövcud ola bilir.Atasızlıq həsrəti - ataya məhəbbət təsadüfi şeirin predmetinə hər zaman çevrilmir və burada fəhmin rolunu qiymətləndirməyə ehtiyac da yoxdur, hansı ki, misralar uzaq illərdə qalmış atanın səssiz pıçıltısıdır:

**Torpaqdan silinib izləri itdi,**
**İzində bir körpə addımı bitdi.**
**Dünyada tutduğu zərrə yerini,**



**Öz hava payını, öz su payını,**
**Bizə - insanlara tapşırdı getdi...**

Hələ şairin təəssüratıdır, yeri görünən atanın ağır, zindan niskilidir, təbiətin bir parça torpağında uyuyan atanın xatırlanmasıdır və bu isə təsadüfi deyil. Şərqin Karma qanunlarına görə, ruhun təbiətlə bağlılığı məhz bu qanunların köməyilə təmizlənir, yəni: hansısa bədəndə (canda) təcəssüm olunmuş ruh yaxşı, yaxud pis hərəkətlər edir. Bir qədər aydınlıq gətirsək, Karma - bütün hərəkətlərin təsiridir; o, ruhu ölüm və doğum vəziyyətinə gətirir və onu növbəti təvəllüdə təhkim edir. Özü ilə bu təvəllüdlük baş verdiyi şərait (var - dövlət, kasıblıq, şöhrət, ailəcanlıq və s.) əvvəlki doğum zamanı gördüyü yaxşı və ya bəd hərəkətlərində verilir... Şair məhz bu olmuşları ağlı kəsəndə - analitik idrak prosesində təxəyyülündən poetik fantaziyasına ötürmüşdür və etirafina səmimidir.

**Qayğısı - havaydı,**
**Görmürdüm əvvəl,**
**Deyərdim olmasa da, olsa da birdir.**
**Indi bilirəm ki,**
**Mənim nəfəsimin təngidiyi yer,**
**Ata qayğısının itdiyi yerdir.**

Şair (ümumiyyətlə, şairlər) hansı amildəndir ana və ata haqqında ən həzin, ən dəruni, ən təkrarsız şeirlərini qələmə alır. Bir səbəbisə doğmasının ruhlarının övlad hafizəsinə qayıtmasıdır, onların hesabına "yaşamasıdır." Onu əllə tutmaq qeyri-mümkündür, yalnız oyatdığı təəssürat poetikləşər. Şair sanki kənarda dayanıb atasını (yaxud anasını) görür və o, qəfil ruha çevrilib yox olur. Musa Yaqubda bunu qeyri-adi məntiqi misralardan duyuruq:

**Bir insan çevrilib bir məzar oldu,**
**Torpağın tapdanmış bir qarışında yer qabar oldu**
**Bu qabar sinəmdə bir qübar oldu,**
**Ata itirmişəm, atamı...**

Bu yaşantı şairin ata ruhu önündə iqtidarsızlığıdır, onun ruhunu canına yenidən qaytarmaq imkansızlığıdır, nə yaxşı belədir, yoxsa insan Allahın əmri əleyhinə çıxmazdımı? Keçmişə və gələcəyə inamsızlıq deyilmi? Bu ideyada yaponlarla eyniləşmək olmazdımı? Bəli, yozumun görünən tərəfinə baxaq: şeirin yazılmasını şərtləndirən dərin ata istəyindən irəli gələn poetik informasiyalar sonralar yenidən oyandı, şairin səmimi etirafı:

**Bu həyətdən itdi kölgən, qaraltın da...**
**Başsız qoyub getdin bizi,**
**Ürəyimiz qaldı bu gün qar altında,**
**O köməkli günlərimiz dönməz geri,**
**Sənsiz necə böyüdərəm körpələri?!**
**Tək ayaqla**
**Bu körpüdən necə keçim?**
**Tək əl ilə**
**Bu zəmini necə biçim? -**

Səs şairin anasının göz yaşına bələnmiş, niskilinə bürünmüş hıçqırığıdır - Musa Yaqub yaddaşının canlı tarixçəsidir:

**Qulaq verdim, anam idi**
**Dərdi böyük, gözü yaşlı -**

Lakin elə düşünməyək şairi ancaq artıq ötmüş xatirələr düşündürür - xeyr! Təbiətin görümü - şairi həzinləşdirən mənzərə misraları pıçıldayır:

**Sübh çağıydı, dan yerinə**
**Qar yağırdı aram-aram,**
**Budaqların beli bükük,**
**Həyətlər ağ vərəq idi,**
**Kənd yatırdı, təkcə bizim**
**Eyvanımız oyaq idi,**
**Qar yağırdı atamın da məzarına.**

Barəsində danışdığım "Atamın xatirəsinə" şerində ikinci ovqat atanın doğma ocağında qoyub getdiyi xatirələrdir, hələ silinməmişdir əşyaları, daş pilləkanlar, pencəyi və:

**Qar yağırdı atamın da məzarına,**
**Birinci qar...**
**Ya atamın**
**Buz bağlamış barmaqları,**
**Ya qar basmış**
**Çılpaq gilas budaqları,**
**Nə fərqi var?!**
**Dəhlizdə qar sovrulduqca**
**Ağarırdı daş pilləkan**
**Asılqanda**
**Atamın boz pencəyinə**
**Qar yağırdı.**

Musa Yaqub atası haqqında elegiyasını poeziyasının harmoniyası prinsipinə uyarlaşdırmış ki, bu da təbiidir: şeirin "dayaq nöqtəsi" oxucunu əsas mətləbi mənimsəməyə aparmış və duyğulandırmışdır. Ata yoxluğu ocaq başında qızınanlara nəyi xatırlatmalıdır və bu, hansı assosiativ motivlərə rəvac vermişdir:

**... Qar yağardı ruzumuza,**
**Xırman üstə gedib - gələn**
**Yol da, iz də üşüyürdü.**
**Ələkdən qar ələndikcə**
**Təknəmiz də üşüyürdü.**
**Qış görmüşdüm,**
**Hava belə qaralmazdı.**
**Qar görmüşdüm,**
**Belə soyuq qar olmazdı...**

Şair xatirələrin cəngindən qurtarmır - itirdiyi atalı illərin acısını yaşayır, atası ilə bərabər sanki uşaqlığını dəfn etmişlər. İndi isə qar yağır, oyuncaqları da, cocuqluğu da qalıb qar altında. Torpaqda uyuyan, alt qatında qalan yaşıl otlar da üzə çıxır, amma:

**Amma mənim daha heç vaxt**
**Oyuncağım göyərmədi,**
**Mənim uşaq istəklərim göyərmədi.**
**Atamın öz əlləriylə alınacaq**
**Köynəklərim göyərmədi,**
**Elə qaldı qar atında...**

Ölüm heçlik, yoxluq deyil ki bir daha xatırlanmasın, əbədiyyətə etibar edilsin; əsla bu cür düşünməzdim. Ölüm ruhu özündən sonra yaşadan anlamdır və tarixlər boyu onun fəlsəfəsini açmaqda acizlik göstərmişlər, yeganə ümid şairlərə qalmış ki, onun müdrikliyini poetik sözlərlə canlandırmışlar - bu, mübaliğəm deyil - inamımdır.

**Musa Yaqubun "Atam... Atam...," "Ata itirmişəm" və "Atamın xatirəsinə" şeirlərinin fəlsəfi yükü Ölümün müdrikliyini ümumiləşdirir, ruhun sahibini əzablardan qurtarmaq inamını aşılayır. Nə qədər ki, doğmasının həyatı yenidən övladında yaşayır; əgər şairsə poeziya da əbədiləşir. Lakin bu, heç də ona haqq qazandırmır ki, Ölümə can atasan ki, əzablarından xilas olasan və bununla təsəllini mənəvi təkmilləşmədə tapasan. Fikrimcə, Ölüm hansı formada olursa, hansı Məkan və Zamandan gəlirsə fərqi yoxdur, o, İnsanın Dünya, Cəmiyyət haqqında düşüncələrini məhv edir. Dünyamız barədə müdrikliyimizi itirmək qabiliyyətinə malik olur. Ölüm haqdır, onun İnsan üzərində qələbəsi tək Allahın hökmündən asılıdır. Belə məqamlarda "Ölüm və Olum" qorxusunun intizarını çəkməyə dəyməz. Ən münasibi böyük filosof Spinozanın sözləridir: "Azad adam Ölüm haqqında hər şeydən az düşünür, onun müdrikliyi ölümün deyil, həyatın araşdırılmasıdır."**

**Allahverdi Eminov**